Ələmdar MƏMMƏDOV



# Mən bu zamana sığmazam

## Zirvəyə doğru: İlyas - İlahi qüvvə, köməyə gələn

**(əvvəli ötən saylarımızda)**

**O vaxtlar mən artıq Azərbaycan Respublikası prokuroru deyildim, Moskvada SSRİ Prokurorluğunda işləyirdim, Manuçarovun işi ilə də daim maraqlanırdım. Onu qeyd etməyi özümə borc bilirəm ki, həm A.F.Katusev, həm də K.K.Maydanyuk bu işə vicdanla yanaşırdılar, böyük təsirlərə baxmayaraq, qanun pozuntusuna və ədalətsizliyə yol vermirdilər. Onların məlumatlarına görə, hələ Qorbaçovun həyat yoldaşı Raisa Maksimovna da zəng edərək işin xitam olunmasını xahiş edirmiş.**

Qanuna hörmət bəsləyən insanlar işi xətm etmədilər, əksinə, ittihamnamə ilə baxılması üçün SSRİ Ali Məhkəməsinə göndərdilər. Burda da ağlagəlməz hadisə baş verdi - SSRİ Ali Məhkəməsi işə baxmadı və onu Belorusiya Ali Məhkəməsinə göndərdi. Belorusiya Ali Məhkəməsi də işə baxmadı, onu Brest Vilayət məhkəməsinə göndərdi. Vilayət məhkəməsi də işi uydurma əsaslar üzrə qanunsuz olaraq təkmili istintaqa qaytardı. SSRİ Prokurorluğunda - vilayət məhkəməsinin bu qərarından protest hazırlanırdı ki, SSRİ dağıldı, Yakovlev və digərlərinin köməyi ilə dövlət əmlakını xüsusilə külli miqdarda talayan, rüşvətxor Manuçarov cəzasız qaldı. Bu da Yakovlevin şəxsində Sov. İKP MK Siyasi Bürosunun separatçılara dəstəyi idi."

### *O, ən yüksək dairələrdə Azərbaycanın mövqeyini qorumağı bacarırdı...*

1989-cu il iyun ayının 22-23-də Moskva şəhərində SSRİ Hüquqşünaslar İttifaqının təsis qurultayı keçirilirdi. Qurultayda Azərbaycan Respublikası prokurorluğunun Təşkilat Analitik şöbəsinin rəisi İdris Əsgərov, Sumqayıt şəhər prokuroru İsmət Qayıbov və nümayəndə heyətini rəhbəri kimi Respublika prokuroru İlyas İsmayılov iştirak edirdi. Qurultaym gündəliyinə çıxarılmış təşkilati məsələlər həll edilərkən, yaradılan qurumlardan birinə İ.İsmayılov Sumqayıt şəhəri prokuroru İsmət Qayıbovun namizədliyini irəli sürdü. Ermənistan nümayəndələri İ.Qayıbovun adını Sumqayıt hadisələri ilə əlaqələndirərək, onun namizədliyinə qarşı səs-küylü etirazlar səsləndirdilər və elan etdilər ki, İ.Qayıbovun namizədliyi geri götürülməsə, onlar qurultayı tərk edəcəklər. Məsələ xeyli müzakirələrə səbəb oldu. Gərginliyi yatırmaq üçün tənəffüs elan edildi. Digər respublikaların prokurorları, eləcə də SSRİ Baş prokurorunun müavini Bajenov İ.İsmayılovdan xahiş edirdi ki, İ.Qayıbovu başqa bir namizədlə əvəz etsin. İ.İsmayılov bütün bu təklifləri qətiyyətlə rədd edərək dedi ki, bu təklifləri qəbul etmək Sumqayıt hadisələrinin azərbaycanlılar tərəfindən törədildiyini etiraf etmək demək olardı. İ.İsmayılov çıxış edərək, Sumqayıt hadisələrinin erməni separatçıları tərəfindən himayədarlarının ssenarisi üzrə quraşdırılmış fitnəkarlıq olduğunu inandırıcı dəlillərlə ortaya qoydu. İ.Qayıbov namizədliyi irəli sürülmüş quruma seçildi. İlyas müəllim SSRİ Baş prokurorluğunda şöbə müdiri vəzifəsində işləyərkən, Azərbaycan Respublikasının Ədliyyə naziri olarkən, partiya sədri və millət vəkili kimi həmişə Azərbaycanın haqq səsini dünyaya çatdırıb. Məsələn, 2001-ci ildə Milli Məclisdə dinləmələr zamanı etdiyi çıxışında deyir: "Hesab edirəm ki, Qarabağ məsələsi ilə əlaqədar hər kəs partiya mənsubiyyətini, şəxsi və qrup maraqlarını yadından çıxarmalıdır və məsələnin mahiyyəti üzrə danışmalıdır".

İlyas müəllim bütün həyatı boyu Qarabağ məsələsində iqtidarın yanında olmuşdur. O,"sülh istəyiriksə, müharibəyə hazırlaşmalıyıq" prinsipini əldə rəhbər tutaraq, öz yazılarında qiymətli və məntiqli fikirlərini həmişə ictimaiyyətə çatdırmışdır.

### *Zəfərdən sonra*

Tarixdə ilk dəfə Azərbaycan dövlətini imperiyaya çevirmiş şəxsiyyət Şah İsmayil Xətainin belə bir kəlamı var: "Müdrik əcdadlarımızdan miras qalmış üç şeyi sizə vəsiyyət edirəm: - ana dilimizi - vicdanımızı - Vətənimizi".

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 44 günlük müharibədən sonra xalqa belə bir müraciət etdi: "Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin; Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!"

Bu tarixi qələbə - keçən əsrin sonlarından 2020-ci ilə qədər davam edən Azərbaycan Vətən Müharibəsi Azərbaycan xalqının, Azərbaycan ordusunun, Ordunun başında dayanan Ali baş Komandanın qələbəsi idi. 30 ilə yaxın müddətdə düşmən tapdağı altında qalmış torpaqları azad etməklə, bu torpaq uğrunda canını fəda etmiş oğulların, o oğulların yolunu gözləyə-gözləyə dün-yasını dəyişmiş anaların, ataların, Azərbaycan dövləti, Azərbaycan torpaqları, Azərbaycan xalqı uğrunda son damla qanına qədər vurusmuş Xətailərin, babəklərin, cavadxanların, mübarizlərin, poladların... ruhunu şad etmiş oldu.

Yaxın keçmişə boylananda 30 illik işğal deyirik, əslində isə, Ali Baş Komandan İlham Əliyev Azərbaycan torpaqlarının uzunmüddətli işğalına son qoydu.

Tarixi varaqlayaq: 1736-cı ildən hakimiyyətdə olan Nadir Şah 11 ildə Dağıstan, Gürcüstan, indiki Ermənistan ərazisi, İran, İraqın böyük bir hissəsi, Özbəkistanın bir hissəsi, Türkmənistan, Pakistan və Əfqanıstanın böyük bir hissəsi, Dehli də daxil olmaqla, Hindistanın bir hissəsi, Bəhreyn və Oman kimi dövlətləri fəth edərək Azərbaycanın ərazisini 3 milyon kv.km çatdırdı. 1746-cı ildə Nadir Şahın sui-qəsd nəticəsində öldürülməsindən sonra ayrı-ayrı feodal dövlətlərə və xanlıqlara parçalanan, xarici təcavüz nəticəsində zaman-zaman torpaq itirən bu nəhəng imperiyadan keçən əsrin 90-cı illərində cəmisi 86 min kv.km.lik ərazi qalmışdı ki, onun da 20 faizi ermənilər tərəfindən işğal edilmişdi. 2-ci Qarabağ müharibəsində qazanılan qələbəmiz 274 illik həsrətimizə son qoydu.

Qeyd: Hicrətin 6-cı ilində (m.628) Rumlular Farslara qalib gəldilər. Həmin vaxt Peyğəmbər(s.ə.s) belə bir fikir səsləndirmişdi:"Nə bəxtəvərdir o komandan və əskərləri ki,Konstantinopola bayraq sancacaq".8 əsrdən sonra bu missiya 7-ci osmanlı sultanı II Mehmetə qismət oldu.(1453).Xalq o gün və bu gündə artıq 7 əsrə yaxındır ki,onu Fateh adlandırır.

Bu gün eyni sözləri Şuşamıza bayraq sancmış Komandan və əskərləri haqqında da demək olar. Bu böyük missiya bizim Prezidentimiz İlham Əliyevin üzərinə düşdü. Bundan sonra ona Fatehmi yoxsa Xilaskarmı deyiləcək-buna uca millətimiz qərar verəcək.Amma bəlli olan odur ki,əsrlər boyu bu hünərverlik unudulmayacaq.




Azərbaycan siyasi partiya başqanları, o cümlədən Ədalət Partiyasının başqanı bir araya gələrək Respublika Prezidentinə belə bir məktub göndərdilər:

"Cənab Ali Baş Komandan!

Zati-alinizin hakimiyyətdə olduğu illərdə uğurla həyata keçirdiyiniz siyasət nəticəsində Azərbaycanın yeni tarixi qızıl hərflərlə yazılır.

... Ali Baş Komandan olaraq ordumuzun həm maddi-texniki təminatının və döyüş qabiliyyətinin, həm də şəxsi heyətin peşəkarlıq səviyyəsinin yüksəldilməsi istiqamətində gördüyünüz işlər bugünkü Qələbəmizi təmin edən əsas amillərdir.

Azərbaycan işğal atındakı torpaqlarını azad etmək üçün uğurlu hərbi əməliyyatlara davam etdiyi zaman Ermənistan və onun havadarlarının ölkəmizə təzyiq cəhdləri Sizin diplomatik bacarığınız, beynəlxalq münasibətləri doğru dəyərləndirməyiniz, məntiqli arqumentləriniz sayəsində qısa za-man- da iflasa uğradı.

Əks-hücum əməliyyatları başladığı gündən bütün Azərbaycan xalqı kimi, ölkədə fəaliyyət göstərən siyasi partiyalar da ətrafınızda yumruq kimi birləşərək, Sizi qeyd-şərtsiz dəstəklədi. Bu mübarizədə hər zaman olduğu kimi, Azərbaycan xalqı ilə birlikdə Sizin yanınızdayıq və hər bir əmrinizə tabeyik.

İşğal altında olan hər qarış Vətən torpağının, xüsusilə də Şuşanın düşmən tapdağından azad edilməsi üçün göstərdiyiniz dəyanət, qətiyyət və səbrə görə Sizi və Azərbaycan xalqını ürəkdən təbrik edirik.

Şuşa qələbəsindən sonra Böyük Zəfər müjdənizi səbirsizliklə gözləyirik! Yaşasın Azərbaycan!"

...Biz o günləri də yaşadıq - Ali Baş Komandan Böyük Zəfər müjdəsi ilə də xalqını sevindirdi.

İlham Heydər oğlu Əliyevin Şuşa şəhərində Dünya Azərbaycanlılarının V Qurultayı - Zəfər Qurultayında söylədiyi geniş nitqdən bir hissəni diqqətinizə çatdırıram:

"Biz şəhidlərimizin qanını döyüş meydanında aldıq, qisasımızı düşməndən döyüş meydanında aldıq. Onların qanı yerdə qalmadı, bu, onların yaxınları üçün, qohumları üçün, bütün Azərbaycan xalqı üçün təsəlli verir.

Biz bu gün azad Qarabağda, azad Şuşada Dünya Azərbaycanlılarının Qurultayını keçiririk. Bu qurultayın adı Zəfər qurultayıdır və bu, təbiidir. Çünki tarixi Zəfərdən sonra ilk dəfədir ki, dünya azərbaycanlıları toplaşır, qurultay keçirir və ümumiyyətlə Zəfər adı xalqımıza çox yaraşır. Siz buraya Zəfər yolu ilə gəlmisiniz, qurultayın adı Zəfər qurultayıdır. Hazırda ölkəmizin müxtəlif yerlərində, ilk növbədə, azad edilmiş ərazilərdə Zəfər muzeyləri inşa edilir.

Bundan sonra Azərbaycan xalqı müzəffər xalq kimi əbədi yaşayacaq, bundan sonra bizim dövlətimiz qalib dövlət kimi yaşayacaq. Bu, böyük xoşbəxtlikdir - hamımız üçün, Azərbaycanda yaşayanlar, Azərbaycan vətəndaşları üçün, xaricdə yaşayan azərbaycanlılar üçün. Bu tarixi missiyanı həyata keçirən bizim qəhrəman övladlarımız tarix qarşısında, xalq qarşısında, Vətən qarşısında misilsiz xidmətlər göstərmişlər. Müstəqillik dövründə yetişən gənclər, vətənpərvərlik ruhunda yetişən gənclər bu tarixi hadisəni, tarixi müjdəni Azərbaycan xalqına bəxş etmişlər.

Buraya gələrkən 2001-ci ildə keçirilmiş ilk qurultayı xatırlayırdım. Bildiyiniz kimi, ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə ilk qurultay 2001-ci ildə keçirilmişdir. Ulu Öndər dərin məzmunlu çıxışında, eyni zamanda, təbii ki, Qarabağ problemi ilə bağlı öz fikirlərini bildirmişdir və demişdir ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək, işğal altında olan torpaqlar işğaldan azad ediləcək və Azərbaycan xalqı öz dədə-baba torpaqlarına qayıdacaqdır. Biz - Ulu Öndərin davamçıları bu sözləri gerçəyə çevirdik!"

Yeri gələndə humanistliyi, yeri gələndə ciddiyyəti ilə seçilən, ədalətli, son nəfəsinə qədər haqqa tapınan (İ.İsmayılov bu dünyayla "Lə İləhə iləllah!" kəlməsi ilə vidalaşıb.), düzlükdən, dürüstlükdən, ali və ilahi qanunlardan heç vaxt uzaq düşməyən İlyas İsmayılov böyüklüyü, müdrikliyi ilə də həmişə öndə olub, başqalarından seçilib.

**(ardı var)**